**UOT 327**

# MÜNAQİŞƏLƏRİN TƏNZİMLƏNMƏSİ PROBLEMLƏRİ

**Aynur ƏLİŞANOVA***

***Açar sözlər:*** *Yeni dünya, münaqişələr, ABŞ, SSR, qütbləşmə, NATO, BMT*

Siyasi münaqişə – öz siyasi və sosial-psixoloji dinamikasına malik olmaqla son dərəcə mürəkkəb hadisədir. Tədqiqatçıların bir qismi siyasi münaqişəyə münaqişə qruplarının və qüvvələr nisbətinin dinamikasının formalaşması prizmasından baxaraq onu sosioloji yanaşma çərçivəsində araşdırır. Digər bir qisim isə məsələyə bir-birilə mübarizə aparan subyektlərin əhval-ruhiyyəsinin dinamikası, onların davranışları prizmasından baxaraq araşdırmaları davranış yanaşması çərçivəsində aparır.

Hazırki dövrdə münaqişələrin tənzimlənməsi zamanı ortaya çıxan problemlərin təhlilinə diqqət edək. Həmçinin müasir beynəlxalq münasibətlərin əsas aktorları olan – dövlətlər, eləcə də müxtəlif qeyri-dövlət iştirakçılarının qarşısında yaranan bu problemlərlə bağlı proseslərin yaxın gələcəkdəki perspektivlərinin necə olacağını araşdıraq.

Şübhə yoxdur ki, bu gün siyasi münaqişələrin tənzimlənməsi problemlərin beynəlxalq münasibətlərin yeni sisteminin formalaşması prosesləri ilə birbaşa bağlıdır. Ancaq eyni zamanda beynəlxalq münasibətlər sisteminin formalaşmasında həmişəki kimi başlıca aktorun dövlətin olması səbəbindən, bu sistemin necə olacağı haqqında irəli sürülən fikirlərin əsasında bir qayda olaraq, ötən əsrin 90-cı illərində *yeni dünya nizamının* formalaşması haqqında vüsət almış diskussiya durur.

"Yeni dünya nizami" termininin özünün ilk növbədə dünya arenasındakı dövlətlərarası münasibətlərlə bağlı olmasına baxmayaraq, bu və ya digər münaqişəli problemin həllində marağı olan bəzi ölkələrin mövqeyi həm bu münaqişələrin özünün tənzimlənməsi prosesinə, həm də qeyri-dövlət aktorlarının (məsələn, QHT-lər) və beynəlxalq təşkilatların bu sferadakı davranışlarına tam mənada önəmli təsir göstərə bilər. Bunun nəticəsi olaraq, biz müasir münaqişələrin tənzimlənməsi problemlərinin göstərilən istiqamətdə öyrənilməsinin olduqca aktual olduğu qənaətindəyik.

Vaxtilə dünya ABŞ və SSRİ-nin uyğun olaraq başçılıq etdikləri NATO və VMT (Varşava Müqaviləsi Təşkilatı) hərbi-siyasi bloklarının qarşıdurması şəklini almış iki qütblü struktura malik idi (L.Blumfildin vəA.Moultonun dəqiq, lakin bir az qəti və sərt tərifinə görə həmin dövrdə münaqişələrin böyük əksəriyyəti "iki super dövlətin qlobal oyununda piyada rolunda çıxış edirdilər" (21, s. 20). Bu struktur o qədər möhkəm tarixi bir qurum idi ki, onun dağılması ilə çox vaxt elmi ədəbiyyatda postsovet məkanının və digər ölkələrin müxtəlif tədqiqatçılarının belə bir fikirləri yer alırdı ki, müasir münaqişələrin bir çoxu heç də beynəlxalq həyatın yeni hadisələri deyildir və əslində yalnız vaxtilə soyuq müharibə qaydalarına uyğun olaraq dondurulmuş və beləliklə də təxirə salınmış münaqişə vəziyyətləridir.

Yuxarıda adı çəkilən müəlliflər əsasən hesab edirlər ki, bu cür münaqişələrin kökü tarixin dərinliklərində yerləşir və 1980-1990-cı illərdə sadəcə olaraq latent fazadan fəal cari fazaya qədəm qoymuşlar. Bu gün tarixçilər haqlı olaraq belə bir sual irəli sürürlər: "nəyə görə Azərbaycan, Gürcüstan, Yuqoslaviya, Şri-Lanka və s. ölkələrdə baş verən münaqişələr əvvəllərdə və ya sonra deyil, hansısa müəyyən bir anda ortaya çıxdı (daha doğrusu Qorbaçevin yenidənqurmasından, Titonun ölümündən, ingilislərin gedişindən sonra baş verdi)?" (12, s. 19). Səbəb kimi adətən "imperiya çəmbəri" kimi adlanan maneənin yox olması və ya arbitr rolunu oynayan, bitərəf və yanlış rəylərə əsaslanmayan (məsələn, etnik ziddiyyətlərə münasibətdə) "ali hökmdarın" gedişi göstərilir.

Faktiki olaraq, o dövrdə Britaniya, Moskva və ya Titov hakimiyyətləri çalışırdılar ki, birtəhər etnik qüvvələrin balansını qoruyub saxlasınlar və heç bir halda mərkəzin hegemon hakimiyyətini

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı
E-mail: aynuralishanova7@gmail.com

sarsıda biləcək etnik partlayışlara yol verməsinlər. Qüdrətli, hər şeyə qadir, əzici mərkəz yox olub gedən kimi qüvvələrin əvvəlki balansı dərhal pozuldu. Bu vəziyyətdən də etnik azlıqlar istifadə edərək faydalanmağa çalışdılar.

Adətən belə bir dəyişikliklərin baş verməsinin nəticələrindən biri kimi göstərirlər ki, bu gün beynəlxalq münasibətlər sistemində *onsuz da mürəkkəb olan münaqişələrin idarə olunma səviyyəsi aşağı düşmüşdür*. Qütbləşmiş dünyada regional münaqişələrin idarə olunması haqqında çox böyük qeyd-şərtlərlə danışmaq olar, hətta bir çox hallarda super dövlətlər öz məqsədlərinin həyata keçirilməsi üçün münaqişələrin özündən də istifadə edirdilər. Ancaq buna baxmayaraq, ən təhlükəli hallarda qütbləşmiş dünyanın liderləri birbaşa toqquşmadan yaxa qurtarmaq üçün öz fəaliyyətlərini bir-birilərilə uzlaşdırmağa çalışırdılar. Məsələn, soyuq müharibə dövründəki Ərəb-İsrail münaqişəsinin gedişatında bir neçə dəfə belə təhlükə yaranmışdı. Həmin təhlükəli anlarda hər bir super dövlətlər öz müttəfiqinə təsir göstərmişdi (11, s. 248).

Qütbləşmənin pozulmasının nəticəsində yeni dünya nizamı sisteminin müəyyən edilməsi və əsaslandırılmasına qanunauyğun olaraq ehtiyac yaranır. Belə ki, artıq bu gün soyuq müharibədən sonra yaranmış bir çox yeni daxili və xarici münaqişələrin tənzimlənməsi iki super dövlətin təsirindən asılı deyil. Bir çox hallarda indiki münaqişələrin tənzimlənməsi həm dövlətlərin, həm də digər beynəlxalq aktorların – beynəlxalq təşkilatların, hökumətlərarası təşkilatların və qeyri-hökumət təşkilatlarının və bu kimi digər qurumların fəal iştirakından asılıdır. Daha doğrusu, onların hər birinin formalaşmış yeni dünya nizamı sistemində oynadığı rollarından asılıdır.

Bununla bağlı olaraq, "yenu dünya nizamı"nın formalaşmasının ən azı iki konsepsiyasını ayırıb göstərmək olar. Bu haqda ilk dəfə olaraq, İran körfəzi müharibəsi zamanı Amerika prezidenti C.Buş (böyük) bəyan etmişdir (22, s. 12):

– Təkqütblü dünya konsepsiyası (Amerika Birləşmiş Ştatlarının liderliyi ilə);

– Çoxqütblülük ideyası.

Təkqütblü dünya konsepsiyasının fəal tərəfdarı simasında Zbiqnev Bjezinskini göstərmək olar. O, ötən əsrin sonunda bəyan etmişdir ki, SSRİ-nin dağılmasından sonra ABŞ özünü unikal bir vəziyyətdə tapdı: "o, dünyanın birinci yeganə super dövlətinə çevrildi" (4, s. 20). Hazırda bu tezis Amerika administrasiyasının rəsmi bəyanatlarında, müxtəlif mütəxəssislərin və siyasətçilərin çıxışlarında geniş yer almışdır. Üstəlik, bu tezis təkcə ABŞ-da deyil, dünyanın bir çox başqa ölkələrində, o cümlədən Rusiyada da səsləndirilməkdədir. Belə ki, Rusiyanın prezidenti Vladimir Putin 2016-cı ildə Peterburq beynəlxalq iqtisadi forumunda (PBİF) çıxış edərkən bu günkü an üçün ABŞ-ın dünyanın yeganə super dövləti olduğunu demişdir (25). Bunun məntiqi nəticəsi olaraq, Amerikanın bir çox siyasətçiləri hazırda ABŞ-ın müasir beynəlxalq münaqişələrin çoxunun dünyanın harasında baş verməsindən asılı olmayaraq tənzimlənməsi proseslərinə fəal şəkildə təsir göstərməyə qadir olduğunu hesab edirlər. Belə ki, ABŞ artıq sülhün qorunması və münaqişələrin tənzimlənməsi üzrə özünün dünya lideri missiyasını reallaşdırmaqla (məsələn, İran körfəzindəki 1991 və 1998-ci illərdəki müharibələrdə olduğu kimi və ya 1999-cu ildə Kosovo münaqişəsi zamanı) münaqişəli vəziyyətlərin həlli üçün dünyanın yeni təkqütblü sxeminin və modelinin üstünlüklərindən istifadə etmək imkanına malik olmuşdur. Nəticə etibarı ilə beynəlxalq təcrübə göstərdi ki, ABŞ-ın birbaşa rəhbərliyi ilə və BMT və ya NATO-nun himayəsi ilə münaqişə sərt güc üsulları ilə həll edilə bilər. Buna ən parlaq nümunə kimi Kosovo münaqişəsini göstərmək olar. Belə ki, ABŞ nüfuzlu regional təşkilatın (NATO) hərbi fəaliyyətlərinə rəhbərlik edərək başqa bir dövlətin ərazisində münaqişəni həll etməyə və "humanitar fəlakətin" qarşısını almağa çalışırdı. Beləliklə də ABŞ BMT-nin Təhlükəsizlik Şurasının müvafiq sanksiyası olmadan, yalnız NATO-nun çıxartdığı qərar əsasında suveren dövlətə qarşı hərbi qüvvə tətbiq edilməsi kimi (müharibədən sonrakı Avropa tarixində ilk dəfə olaraq) bir örnəyi ortaya qoymuş oldu (3, s. 116). BMT Kosovo və Metoxiyadakı vəziyyəti diqqətlə izlədi, lakin onun tərəfindən hərbi müdaxiləyə qarşı heç bir sanksiya irəli sürülmədi (26). BMT Təhlükəsizlik Şurasında NATO-nun bu hərəkətlərini təcavüz kimi pisləyən BMT-nin qətnaməsi səs vermə zamanı "lehinə" cəmi üç səs yığa bildi (Rusiya, Namibiya və Çin) (20, s. 317). Digər tərəfdən, bu hərbi müdaxiləni tənqid edən siyasətçilər təsdiq edirlər ki, BMT Təhlükəsizlik Şurasının sanksiyası olmadan NATO-nun suveren dövlətə – Yuqoslaviyaya qarşı hərbi əməliyyat aparması BMT-nin nizamnaməsinin

və beynəlxalq hüququn pozulması demək idi (27). Qeyd etmək lazımdır ki, belə bir vəziyyət ABŞ-ın bu gün Yer kürəsinin müxtəlif bölgələrində baş verən müasir münaqişələrin daha çoxunun tənzimlənməsində bilavasitə iştirak etmək üçün can atmağa olduqca əlverişli zəmin yaradır (5, s. 66; 18, s. 22-27).

Bu halda Amerika administrasiyası Şimali Atlantika Alyansına oxşar vəziyyətlərdə sabitliyin qorunmasının təmin edilməsi üçün hazır bir institut kimi baxır. Bu alyansın struktur bölmələri münaqişələrin öncədən qarşısının alınmasına, həmçinin onun gərginliyinin artmasının qarşısını almaq üçün tədbirlərin həyata keçirilməsinə yönələn əməliyyatların aparılması üzrə tez bir zamanda qərar qəbul edilməsini təmin edə bilərlər (9, s. 3-13).

ABŞ-ın keçmiş prezidenti Bill Klintonun xüsusi müşaviri R.Klarkın fikrinə görə, "BMT-nin fəaliyyətinin NATO və ABŞ tərəfindən dəstəyi olmadan hər hansı bir sülhməramlı aksiya ümumən uğursuzluğa məhkumdur. Hətta Birləşmiş Ştatların bölgələrdəki münaqişələrdə birbaşa maraqları olmadığı hallarda belə onlar dünyanın müxtəlif guşələrində təhlükəsizlik üçün daşıdıqları məsuliyyəti öz boyunlarından ata bilməzlər" (19, s. 31-32). Bu gün belə bir konsepsiyaya NATO-nun 1999-cu il 23-25 apreldə Vaşınqtonda keçirilmiş yubiley sammitində qəbul olunmuş sənədlərin çox aydın şəkildə uyğun gəldiyini görürük. Bu sənədlərə görə, Şimali Atlantika Alyansı ilk dəfə olaraq, rəsmən sırf müdafiə strategiyasından çəkildiklərini bildirərək, ənənəvi məsuliyyət zonasından kənar ərazilərdə hərbi əməliyyatların aparılması haqda öz hüququnun olmasını elan etmişdir, üstəlik müəyyən şəraitlərdə belə hərbi əməliyyatlar BMT-nin Təhlükəsizlik Şurasının sanksiyası olmadan da həyata keçirilə bilər (6, s. 24-30; 10, s. 54-58).

Lakin bütün bunlara baxmayaraq, hazırda mərkəzi ABŞ-da olmaqla dünyanın təkqütblü konfiqurasiyasının yaranması ssenarisi bir çox analitiklər tərəfindən şübhə altına qoyulur (23, s. 37). Belə ki, 1945-ci ildən sonra dünyada oxşar vəziyyət müşahidə edilirdi: O dövrdə dünya üzrə Ümumi Daxili Məhsulun 40%-dən çoxu Birləşmiş Ştatların payına düşürdü və o, nüvə silahı və onun çatdırılma inhisarına yiyələnmişdi, öz ərazisinin tam toxunulmazlığına və möhkəmliyinə nail olmuşdu (1, s. 25). Başqa sözlə, hələ o dövrdə artıq ABŞ-ın simasında dünyanın təkqütblü sisteminin yaranması üçün hər cür zəmin var idi. Ancaq bilindiyi kimi təkqütblülük yaranmadı. Bu, əlbəttə ki, onunla izah olunur ki, həmin zamanda dünyada SSRİ kimi kifayət dərəcədə güclü olan (hərçənd ki, müharibə səbəbindən zəifləmiş halda idi) ideoloji rəqib mövcud idi. Ancaq, fikrimizcə, beynəlxalq münasibətlər sistemində belə bir təkqütblü konfiqurasiyanın yaranmamasının əsas səbəbi ondan ibarətdir ki, 1945-ci ildə indiki kimi genişmiqyaslı qloballaşma prosesi müşahidə edilmirdi, eləcə də müxtəlif qlobal təmayüllər mövcud deyildi.

Beləliklə, *çoxqütblülük ideyası* özünü ikinci bir konsepsiya kimi və ya formalaşmaqda olan beynəlxalq münasibətlərə daha bir baxış kimi göstərir. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, təkqütblülüyün pozulması çoxqütblü dünyanın yaranmasını nəzərdə tutur. Onun qütbləri iki blokun, iki dünyanın və ya birlik ölkələrinin dezinteqrasiyası nəticəsində korporativ intizam üzrə məhdudiyyətləri öz üzərindən götürmüş olan ən qüdrətli super dövlətlər olmalıdır. Henri Kisincerin fikrinə görə, "soyuq müharibədən sonra formalaşmaqda olan beynəlxalq münasibətlər daha çox XIX yüzillikdəki Avropa siyasətini xatırladır; belə ki, həmin dövrdə ənənəvi milli maraqlar və dəyişməkdə olan qüvvələr nisbəti diplomatik oyunları, birliklərin yaranması və dağılmasını, nüfuz sferalarının dəyişməsini müəyyən edirdi" (14, s. 37-38).

Bununla yanaşı, qeyd etmək lazımdır ki, bu gün ABŞ və Qərbi Avropanın akademik və siyasi dairələrində Amerika Birləşmiş Ştatlarının müasir beynəlxalq münasibətlərdə açıq-aşkar üstünlüyü haqqında iddialar hökm sürdüyü halda (101), Avropanın qalan hissəsində və birinci növbədə Rusiyada əsasən çoxqütblü dünya ideyası haqqında müzakirələr gedir (15, s. 50-52; 16, s. 3-20; 17, s. 71-76).

Hazırda bu düşüncələrin fonunda aparıcı super dövlətlər arasında müasir dünyanın nüfuz sferalarına "bölgüsü" kimi adlandırılan ideyalar (birinci növbədə müasir münaqişələrin tənzimlənməsi haqqındakı məsələlərdə) daha tez-tez söylənilir. Belə bir planlardan birini Amerikalı politoloq Ç.Meyns irəli sürmüşdür. O, hesab edir ki, ABŞ həmişəki kimi Qərb ölkələri arasında özünün domi-

nantlıq mövqeyini qoruyub saxlayacaqdır, Rusiya keçmiş SSRİ ərazisində analoji lider mövqeyində qalacaqdır, Hindistan Cənubi Asiyada liderə çevriləcəkdir, Çin və Yaponiya isə Asiya qitəsinin digər ərazilərində lider olacaqlar. Faktiki olaraq, belə bir nizam müasir dünyanın yeni reallıqlarına daha çox uyğun gəlir və ilk növbədə münaqişələrin həll edilməsi və tənzimlənməsində kollektiv yanaşmaların formalaşması meyilləri ilə üst-üstə düşür (4, s. 249).

Lakin bu gün belə bir konsepsiya da bir çox mübahisələrə və etirazlara səbəb olur. Elə isə yeni qloballaşmış dünyada kiçik regional sferalara bölünmüş olan və bu sferaların hər birində güclü dövlətlərin (və ya dövlətlər qrupunun) hökmran olduğu dünya nizamını nəzərdə tutan bir modelin mövcud olması mümkündürmü? Dünyada sülh yalnız güc hesabına hakim olacaqmı? Dövlətlər arasında yeni münaqişələr başlaya bilməzmi, məsələn, yaponlarla çinlilər arasında? Nəticədə biz şahidi oluruq ki, bir qisim həll edilməmiş problemlər digər yeni problemlər burulğanının yaranmasına yol açır və öz növbəsində onların da tənzimlənməsinə ehtiyac yaranır (2, s. 340-341).

Bununla belə formalaşmaqda olan yeni beynəlxalq münasibətlər sistemi gələcəkdə ayrı-ayrı dövlətlərlə və ya onların ittifaqı ilə təmsil olunan bir neçə mərkəzdən və ya qütbdən ibarət olan beynəlxalq münasibətlər sistemi kimi bir şəkil almaya da bilər. Əvəzində isə yeni beynəlxalq aktorlar arasında müxtəlif iqtisadi, siyasi və digər əlaqələrin keyfiyyətcə yeni bir sistemi ola bilər, yəni differensiasiya olunmuş qüvvələrin bəlli bir dünyası ola bilər. Bu dünyada beynəlxalq təşkilatların əhəmiyyətinin artması ilə ən müxtəlif tip güclərin balanslarının qarşılıqlı fəaliyyətlərinin uzlaşmasını ehtimal etmək olar.

Bununla bağlı formalaşmaqda olan vəziyyətə adekvat olaraq C.Nayın (kiçik) konsepsiyasını göstərmək olar. O, bizim hazırki qlobal informasiya əsrində yeni dünya nizamının formalaşması prosesini üç səviyyəli şahmatla müqayisə etməklə izahını verməyə çalışır. Yüksək səviyyə – *güc səviyyəsi* bugün tamamilə ABŞ-a tabedir və o, güc sferasında bütün digər dövlətləri olduqca geridə buraxmışdır. Orta *iqtisadi səviyyə* bu gün çoxqütblü olması ilə xarakterizə olunur. Onun qütbləri ABŞ, Avropa, Çin və Yaponiyadan ibarətdir. Hazırda bu ölkələrin payına bütün dünya üzrə ümumi istehsalın 2/3 hissəsindən çoxu düşür. Üçüncü səviyyə özünü sərhədləri aşan və dövlətlərin hökumətlərinin nəzarətindən kənarda qalan *transmilli münasibətlərdə* büruzə verir. Bu münasibətlər özünü olduqca dağınıq, səpələnmiş bir struktur kimi göstərir və müxtəlif beynəlxalq aktorlara imkan verir ki, bu sistemin müxtəlif səviyyələrində eyni vaxtlarda müxtəlif rollarda çıxış etsinlər (24, s. 24).

Gəldiyimiz qənaətə görə, yeni yaranmış dünya nizamı, böyük ehtimalla homogen vahidlərin (milli dövlətlərin müasir sistemi şəklində) sistemi kimi deyil, heterogen vahidlərin (məsələn, bəzi sosial hərəkatlar, müəyyən maraqlara söykənən bəzi qruplar, bəzi beynəlxalq təşkilatlar, bəzi hərbi qruplaşmalar və s. heterogen vahidlər kimi) bir-biriləri arasındakı münasibətlərə əsaslanmış olan bir sistem olacaqdır.

Dünya nizamının yeni vəziyyətinin belə qeyri-müəyyənliyi və fəaliyyət göstərən fərdlərin həddən artıq fərqli olması müasir beynəlxalq münasibətləri öyrənməkdə olan müxtəlif tədqiqatçılarda mövcud durumun daha yaxşı və dolğun izahını verməyə həvəsləndirir, onları müxtəlif tipli müəllif konsepsiyaları quraraq irəli sürmələrinə sövq edir. Məsələn, Amerikalı müəllif A. Appadurai "scapes" adlanan orijinal bir fikir irəli sürür (8). Tam eynilə biz landscapes (landşaftlar) haqqında düşünürük, eləcə də biz mediascapes, ideoscapes, financescapes, migrascapes (tibbi və ideoloji təsvirlər, maliyyə və miqrasiya mənzərələri; bütün bunların nəticəsində nəhəng və mürəkkəb bir ümumi mənzərə ortaya çıxır ki, bunun əsasında bizi əhatə edən dünya haqqında təsəvvürümüz formalaşır) haqqında düşünə bilərik. Bu gün üçün belə bir konsepsiya müasir və daim dəyişməkdə olan beynəlxalq münasibətlərin müəyyən bir əlavə təsvirini yaratmağa xidmət edən bir örnək ola bilər.

Bunların fonunda müasir münaqişələrin xarakterlərində baş verən qanunauyğun dəyişikliklər (birinci növbədə bu münaqişələrdə müxtəlif aktorların fəal iştirak etməsi) hazırda bu münaqişələrin ənənəvi dövlətlərarası diplomatik vasitələrlə (bu vasitələrə rəsmi danışıqlar və vasitəçilik prosedurları daxildir) tənzimlənməsi işində xüsusi çətinliklər törədir. Buna səbəb kimi bir çox hallarda iştirakçı tərəfin liderinin legitimliyi ilə bağlı problemlərin həll edilməz bir vəziyyət alması, yəni belə bir liderlə masa arxasında oturaraq danışıqlar aparmağın hüquqi baxımdan mümkünsüzlüyü, eləcə

də vəziyyətə real olaraq tam nəzarət edən liderin müəyyənləşdirilməsiilə əlaqədar ortaya çıxan problemləri göstərmək olar. Bundan əlavə, heç də hər zaman tərəflər arasında əldə edilən razılaşmaların yerinə yetiriləcəyinə zəmanət verilmir.

Lakin hətta tərəflər arasında razılaşmaların əldə edilməsi münaqişə ocağının ortadan qaldırılması üçün heç də kifayət dərəcədə zəmanətin olması demək deyil və son mərhələdə onun tənzimlənməsində başlıca vurğu əldə edilən sazişlərin implimentasiya sahəsinə yerdəyişmə edə bilər. Bu da öz növbəsində baş vermiş münaqişənin hərbi fazasının başa çatmasından sonra əldə edilən sülhün gələcək dövr üçün bünövrəsini təmin etmək məqsədilə sosial-iqtisadi, mədəni və humanitar sahələrdəki köklü problemlərin həllinə xüsusi diqqətin ayrılması zərurətini yarada bilər.

Yekunda belə tiplərə aid olan problemlərin tənzimlənməsində arzu olunan nəticələrin əldə edilməsi üçün bu gün beynəlxalq münasibətlər sisteminin müasir vəziyyətinə uyğun gələn münaqişələrin yeni tənzimləmə vasitələrinin tapılması üçün fəal axtarışlar aparılır. Bu yeni tənzimləmə vasitələri sülhün Vestfal modeli üçün xarakterik olan dövlətlərarası qarşılıqlı fəaliyyətlərin ənənəvi formalarını tamamlamış olardı. Bununla bağlı olaraq, hazırda beynəlxalq təşkilatların bu cür münaqişələrin tənzimlənməsində fəal iştirakı ən aktual məsələlərdən birinə çevrilməkdədir.

Siyasi münaqişənin mahiyyəti, onun təbiəti, həmçinin inkişaf dinamikası və ona təsir göstərən amillər bu siyasət fenomeninin əsas kateqoriyalarıdır. Bu kateqoriyaların tədqiqatı göstərdi ki, siyasi münaqişələrin ictimai elmlərdən yalnız birinin metodları ilə öyrənilməsi mümkün deyildir. Nə sosiologiya, nə də politologiya elmi müstəqil şəkildə siyasi münaqişələrin bütün aspektlərini açmağa qadir deyildir. Yalnız bu elmlərin qovuşduğu nöqtədə siyasi münaqişə hadisəsinin daha universal izahını, açıqlamasını verə bilər.

Siyasi münaqişəyə eyni zamanda bir neçə modelin mövqeyindən baxılmışdır. Ancaq bunların hamısı bu və ya digər dərəcədə siyasi münaqişəni iki və daha çox sayda qarşı-qarşıya gələn tərəflərin toqquşması kimi başa düşürlər. Bütün bu modelləri tədqiq edərək bu nəticələrə gəlmək olar ki, münaqişə bir növ "normadır". Bu mənada Amerika politoloqu R.Dal ilə razılaşmamaq olmaz. O, haqlı olaraq qeyd edir ki, siyasət həyatı və siyasi təcrübə münaqişəni siyasətin xarakteristikalarını inkar etmək kimi deyil, bir norma kimi qəbul etməyəmeyillidir (7, s. 38). İctimai həyatın mövcud olduğu hər bir yerdə münaqişə vardır. Ona görə də münaqişə hadisəsinə bir mənalı olaraq, mənfi hal kimi münasibət bəsləmək doğru olmaz. Bəşəriyyətin inkişafı tarixində məhz münaqişələr daha bəsit ictimai-siyasi formasiyaların dağılmasına yol açmışdır və beləliklə insanlar ibtidai icmadan başlamış müasir dövlətə qədər uzun bir yol qət etmişlər.

Siyasi münaqişənin yaranması və inkişaf etməsi bir sıra amillər qrupunun təsiri altında baş verir. Bu amillər münaqişə vəziyyətinin miqyasını, iştirakçıların sayını, münaqişənin inkişaf sürətini müəyyən edir. Üstəlik, müasir münaqişələr eyni zamanda bir neçə amilin və ya bütün amillərin təzyiqi altında ola bilər ki, bu da onların tənzimlənməsinin daha da uzanmasına və ağrılı olmasına gətirib çıxara bilər.

Beynəlxalq münasibətlərin ikiqütblü sisteminin aradan qalxması müharibənin astanasında olan sülhün balanslaşdırılması dövrünü nəinki bitirmədi, hələ üstəlik bu sferada sabitsizliyi daha da artırdı. Başqa sözlə, bu gün sülhün olmasının mümkünlüyü bir qədər azalmış oldu, çünki artıq qüdrətli ikiqütblü qarşıdurma yoxdur, yəni müharibənin olmaması ehtimalı bir qədər də azaldı. Belə ki, dünya bir növ əvvəlki kimi gözlənilməzlik halına geri dönmüş oldu ki, bu da dünyanın hər tərəfində lokal-regional münaqişələrdə öz ifadəsini tapmış olur. Əvvəllər ikibloklu qarşıdurma ilə qarşısı alınan bu münaqişələr hazırda tez bir zamanda şiddətlənə bilən potensial imkanlara malik olduğuna görə böyük təhlükə mənbəyidirlər.

İkiqütblülüyün ortadan qalxması, ideoloji kommunizm-kapitalizm dixotomiyasının yox olması beynəlxalq münasibətlərin yeni sisteminin formalaşmasına ehtiyacın olduğunu üzə çıxartdı (hazırda Avropanın və dünyanın elmi dairələrində yeni sistemin necə olacağı haqqında gərgin mübahisələr aparılır). Bu yeni sistem dünyanın müasir inkişaf mərhələsinin xüsusiyyətlərini və ilk növbədə yeni beynəlxalq aktorların meydana çıxmasını nəzərə almalıdır.

Ənənəvi dövlətlərarası münasibətlərlə ziddiyyət təşkil edən bir hadisə kimi özünü göstərən (xüsusilə də keçən əsrin 90-cı illərinin əvvəllərində aktuallaşmış olan) qloballaşma proseslərinin, eləcə də bir sıra qlobal meyillərin (siyasətin beynəlmiləlləşməsi, daxili və beynəlxalq münasibətlərin demokratikləşməsi, informasiya və kommunikasiya sahəsindəki canlanma, yeni beynəlxalq aktorlar dairəsinin genişlənməsi, terrorizmin qlobal miqyasda yayılmağa başlaması) ikiqütblülüyün ortadan qalxması ilə eyni vaxta düşməsi beynəlxalq münasibətlərin keyfiyyətcə yeni bir vəziyyətini formalaşdırdı. Yeni vəziyyət də öz növbəsində bir sıra problemlərin (yeni tipli münaqişələrin) yaranmasına yol açdı. Bu problemlərin həll edilməsi üçün isə yeni yanaşmalar tələb olunur.

Münaqişələrin tənzimlənməsi üçün yeni əlavə yolların axtarılması, o cümlədən də bu axtarışların beynəlxalq təşkilatların iştirakı ilə aparılması bu gün üçün ən perspektivli sahə kimi görünməkdədir.

## ƏDƏBİYYAT


1. Арбатов А. Национальная безопасность России в многополярном мире // Мировая экономика и международные отношения. № 10. 2000.
2. Аснер П. Насилие и мир - Спб.: Книгоиздательство “Всемирное слово”, 1999.
3. Барабанов М.С., Коновалов И.П., Куделев В.В., Целуйко В.А. Чужие войны. Москва: Центр анализа стратегий и технологий, 2012. - 272 с.
4. Бжезинский 3. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы). Москва: Международные отношения, 1998.
5. Бжезинский 3. Преждевременное партнерство // Политические исследования. 1994. № 1.
6. Давыдов Ю.П. Расширение зоны ответственности Атлантического мира // США - Канада: экономика, политика, культура. № 3. 2000.
7. Даль Р. Полиархия, плюрализм и пространство // Вопросы философии. №2. 1994.
8. Зегберс К. Сшивая лоскутное одеяло... (Шансы и риск глобализации в России) //ProetContra. Том 4. Осень 1999. Проблемы глобализации.
9. Иванов П., Халоша Б. Россия - НАТО: европейская безопасность на рубеже столетий // Мировая экономика и международные отношения. № 4, 2001.
10. Казанцев Б. Очевидный силовой крен НАТО // Международная жизнь. № 6. 1999.
11. Лебедева М.М. Международные процессы / Международные отношения: социологические подходы / рук.авт. колл. проф. П.А. Цыганков - М.: Гардарика, 1998.
12. Мирский Г. Еще раз о распаде СССР и этнических конфликтах // Мировая экономика и международные отношения. № 2, 1997.
13. Райс К. Во имя национальных интересов // ProetContra. Том 5. № 2, 2000.
14. Современные международные отношения / под ред. А.В. Торкунова - М.: МГИМО. 1998.
15. Торкунов А. Международные отношения после косовского кризиса // Международная жизнь. № 12, 1999.
16. Уткин А.И. Перспективы однополярности в XXI веке // США - Канада: экономика, политика, культура. № 12, 2000.
17. Хозин Г.С. Глобализация международных отношений: объективная тенденция или стратегия США // США - Канада: экономика, политика, культура. № 1. 2000.
18. Чернявский С. Кавказская стратегия Вашингтона // Международная жизнь. № 1, 1999.
19. Шаклеина Т.А. Миротворческая деятельность и ее перспективы (взгляд из США) // США: экономика, политика, идеология. № 3, 1995.
20. Юго-Восточная Европа в эпоху кардинальных перемен. Под ред. А.А. Язьковой, М.: Издательство “Весь Мир”, 2007 г., - 352 с.

21. Bloomfield, L. & Moulton, A. Managing International Conflicts: From Theory To Policy - New York: St. Martin's Press, 1997.

22. Eide, A. Democratization and The New Intemational Order: Unfinished Business / Peace and Conflict Issues After The Cold War - Dijon: UNESCO, 1992.

23. Huntington S. The Lonely Superpower // Foreign Affairs. March/April 1999. Vol. 78. No. 2.

24. Nye J., Jr. Redefining the National Interest // Foreign Affairs. July/August 1999. Vol. 78. No. 4.

25. https://lenta.ru/news/2016/06/17/obamathegreat/[Elektron resurs] - Путин назвал США единственной сверхдержавой.

26. https://web.archive.org/web/20080802135901/http://www.un.org/russian/documen/kosovo/scpv.htm[Elektron resurs] - Мир для Косово.

27. https://www.youtube.com/watch?v=EEhgwdJldeU[Elektron resurs] - NoamChomskyAboutSerbia, Kosovo, Yugoslavia and NATO (video).

## *XÜLASƏ*

***Aynur ƏLİŞANOVA***

### *Münaqişələrin tənzimlənməsi problemləri*

***Açar sözlər:****yeni dünya, münaqişələr, ABŞ, SSR, qütbləşmə, NATO, BMT*

Məqalədə beynəlxalq münaqişələrin həlli problemi ilə bağlı bir sıra məsələlər araşdırılmışdır. Qeyd olunur ki, münaqişənin həlli prosesi həm dövlətlərin özlərindən, həm də beynəlxalq təşkilatlar, hökumət və qeyri-hökumət təşkilatları və digər oxşar strukturların təmsil etdiyi beynəlxalq münasibətlərin subyektlərinin fəaliyyətindən asılıdır. Üstəlik, bu, onların yaradılmış yeni dünya nizamı sistemində hansı rol oynamasından asılıdır. Məqalədə həmçinin hazırki şəraitdə beynəlxalq münasibətlərin formalaşmasında problemlərin (yeni tipli münaqişələrin) həlli yolları diqqət mərkəzində saxlanılır və göstərilir.

## *РЕЗЮМЕ*

***АйнурАЛИШАНОВА***

### *Проблемы регулирования конфликтов*

***Ключевые слова:*** *новый миропорядок, конфликты, США, реформа сектора безопасности, поляризация, НАТО, ООН*

В статье освещается ряд вопросов, связанных с проблемой урегулирования международных конфликтов.

Отмечается, что процесс урегулирования конфликтов зависит как от самих государств, так и от деятельности акторов международных отношений в лице международных организаций, правительственных и неправительственных организаций и других подобных структур.

Более того, это зависит от того, какую роль они играют в системе созданного нового мирового порядка.

В статье также делается акцент и указываются пути решения проблем (конфликтов нового типа) в формировании международных отношений в нынешней ситуации.

***SUMMARY***

***Aynur ALISHANOVA***

***Conflict Resolution Problems***

***Keywords:*** *new world, conflicts, USA, USSR, polarization, NATO, UN*

The article highlights a number of issues related to the problem of settlement of international conflicts. It is noted that the process of conflict resolution depends both on the states themselves and on the activities of the actors of international relations represented by international organizations, governmental and non-governmental organizations and other similar structures. Moreover, it depends on what role they play in the system of the created new world order.

The article also focuses on and indicates ways to solve problems (conflicts of a new type) in the formation of international relations in the current situation.